# AZƏRBAYCAN RESPUBLİKASI

# AUDİTORLAR PALATASI SƏDRİNİN

# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/13** **10 iyun 2021-ci il**

**“RSM Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyətinə**
**xəbərdarlıq elan edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”a, Auditorlar Palatası sədrinin 2021-ci il 08 fevral tarixli dərkənarına və Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə komitənin qərarına əsasən, həmin komitənin müfəttişi S.Vəlizadə tərəfindən “RSM Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyəti barəsində daxil olmuş material üzrə onun fəaliyyətinin monitorinq edilməsi haqqında Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinin rəisi E.İbrahimovun 2021-ci il 25 may tarixli 064 nömrəli xidməti məktubunu nəzərə alaraq **qərara alıram:**

1. “RSM Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyətinə (direktor – Tural Məhərrəmov) Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2015-ci il 25 noyabr tarixli 269/1 nömrəli qərarı ilə I redaksiyada, 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş “Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi”nin 5-ci bölməsinin 1-ci, 2-ci, 8-ci və 11-ci bəndlərinə əsasən xəbərdarlıq elan edilsin və cəmiyyətin rəhbərliyinin nəzərinə çatdırılsın ki, gələcəkdə belə pozuntular təkrar olunduğu halda barələrində daha ciddi inzibati tədbirlər tətbiq ediləcəkdir.

2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, “RSM Azerbaijan” Məhdud Məsuliyyətli Cəmiyyətinə şəxsi işinə qeyd edilməklə xəbərdarlıq məktubunun göndərilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**